# Şöbə rəisi (Geoloji fond şöbəsi üzrə) vəzifəsi üzrə test tapşırıqları

1. Süxurda olan bütün boşluqların həcmı hansı məsaməlikdir?

A) Tam

B) Açıq

C) Efektiv

D) Ümumi

E) Kapilyar

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.A.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

2. Layda hərəkəti (axımı) reallaşdıran əsas amil hansı variantda düzgün verilmişdir?

A) Layın temperaturu

B) Layın təzyiqi

C) Neftın sıxlığı

D) Layların qeyri bircinsliliyi

E) Layların qalınlığı

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma üçün məlumat kitabı. Bakı,2014

3. Qeyri-bircinsliliyin qiymətləndirilməsində əsasən hansı parametrin qiymətindən istifadə edilir?

A) Məsaməlik əmsalının

B) Sement maddəsinin miqdarının

C) Bölünmə əmsalının

D) Cari neftvermə əmsalının

E) Qumluluq əmsalının

Testin çətinlik dərəcəsi: orta

İstinad: М.А.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

4. Yüksək qeyri-bircinsliliyə malik yataqlarda işlənmə hansı variantda aparıldıqda müsbət nəticələr verir?

A) Suvurma üsulunun təkmilləşdirilməsi ilə

B) Sıx quyu şəbəkəsi ilə

C) Səthi aktiv maddələrin təsiri ilə

D) Quyuların istsimar üsullarının dəyişdirilməsi ilə

E) Qaz üsullarının təsiri ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

5. Lay təzyiqini ölçmək üçün hansı cihazdan istifadə edilir?

A) Manometrdən

B) Viskozimerdən

C) Aerometrdən

D) Barometrdən

E) Stereometrdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: М.А.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

6. Yataqların işlənmə proseslərinin müxtəlif dövrləri üçün lay təzyiqinin sahəvi dəyişməsini tədqiq etmək məqsədilə hansı xəritələr tərtib olunur?

A) Struktur xəritələr

B) İzobar xəritələri

C) Pyezometrik xəritələr

D) Barometrik xəritələr

E) İzopaxit xəritələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: М.А.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

7. Hansı rejimdə nefti layda hərəkətetdirici qüvvə kənar, yaxud daban sularının yaratdığı təzyiqdən ibarətdir?

A) Elastik subasqı rejimində

B) Neftdə həll olmuş qaz rejimində

C) Subasqı rejimində

D) Qarışıq rejimdə

E) Qravitasiya rejimində

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

8. Layın işlənmə sisteminin seçilməsi məsələlərinə aşağıdakılardan hansı aid deyil?

A) Lay hansı rejimlə istismar edilməsi

B) Layı müəyyən edilmiş rejimdə istismar etmək üçün ona süni təsir üsullarının seçilməsi

C) İstismar və injeksiya quyularının yerləşdirilməsi, onların sayı və işə salınması qaydası

D) İşlənmənin müddəti

E) İstismar və injeksiya quyularının iş rejiminin müəyyən edilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

9. Neft-qaz yataqlarının işlənməsi istiqamətində aparılan işlərə aşağıdakılardan hansı aid deyil?

A) Laylardan neft-qaz çıxarma prosesinin modelləşdirilməsi

B) Yataqlarda işlənmənin layihələndirilməsi və tənzimlənməsi

C) Neftin,qazın nəqli

D) Laylara səmərəli təsir üsulunun müəyyənləşdirilməsi

E) İşlənmə göstəricilərinin proqnozlaşdırılması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: И.Р.Юшков,Г.П.Хижняк,П.Ю.Илюшин.Разработка и эксплуатация нефтяных и газовых месторождений. Пермь,2013,. А.К.Ягафаров, И.И.Клещенко. ,Г.П.Зозуля и др. Разработка нефтяных и газовых месторождений. Тюмень, 2010.

10. Qırışığın mərkəz hissəsinə nə deyilir?

A) Qırışığın periklinalı

B) Qırışığın klivajı

C) Qırışığın undulasiyası

D) Qırışığın nüvəsi

E) Qırışığın kilidi

Testin çətinlik dərəcəsi: asan

İstinad: А.К.Корсаков. Структурная геология. Москва,2009,
Б.Д.Васильев, А.Ю.Фальк. Структурная геология . Томск, 2010

11. Aşağıdakılardan hansı resurslar kateoqriyasına aiddir?

A) $C_1$ ,$C_2$, $C_3$

B) $C_3$ ,$D_2$, $D_1$

C) $C_2$ , $D_2$, $D_1$

D) B, $C_2$, $C_3$

E) B,$C_1$,$C_2$

Testin çətinlik dərəcəsi: çətin

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

12. Hidrodinamik modellərin tərtibinin ilk hissəsi başlayir:

A) PVT (həcm, təzyiq, temperatur) və hasilatın (tarixin) bərpası ilə

B) Karbohidrogen ehtiyatlarının hesablanması ilə

C) Risklərin qiymətləndirilməsi ilə

D) Layların kollektorluq
xüsusiyyətlərinin paylanmasının təhlili ilə

E) Çöküntütoplama şəraitinin əks etdirilməsi ilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Е.А. Гладков. Геологическое и гидродинамическое моделирование месторождений нефти и газа. Учебное пособие.Томск: Изд-во Томского политехнического университета. 2012

13. Modelləşdirmə prosesində petrofiziki parametrlər və yatağın neftqaz-su kontaktları modelləşdirildikdən sonra hansı mərhələyə başlanılır?

A) Hasilatın bərpası mərhələsnə

B) İşlənmə layihəsinin tərtibi mərhələsinə

C) İqtisadi analizlər mərhələsinə

D) Karbohidrogen ehtiyatlarının hesablanması mərhələsinə

E) Fasial modellərin tərtibi mərhələsinə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Е.А. Гладков. Геологическое и гидродинамическое моделирование месторождений нефти и газа. Учебное пособие.Томск: Изд-во Томского политехнического университета. 2012

14. Hər hansı istismar obyektinin ayrılması istiqmətində aparılan işlərdə qeyd edilənlərdən hansı nəzərə alınmır?

A) Süxurların kollektor göstəriciləri

B) Neftlərin fiziki-kimyəvi xüsusiyyətləri, lay təzyiqi

C) Quyu saylarının eyni olması

D) Quyuların istismar texnologiyası

E) Karbohidrogenlərin faza vəziyyəti və layların rejimi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

15. Təbii rejimlərin təsnifatı hansı amilə əsaslanır?

A) Yatağın ölçülərinə görə

B) Süxurların kollektor xüsusiyyətlərinin dəyişməsinə

C) Cari neftvermə əmsallarının qiymətinə

D) Layda mövcud olan enerjinin təzahürünə

E) Layın istismar üsullarına

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

16. Texnoloji sxemə uyğun olaraq əsas quyu fondundan istifadə etməklə lay parametrlərinin dəqiqləşdirilməsi nəzərə alınmaqla yataqda 70% qazma işləri başa çatdıqdan sonra hazırlanan sənəd necə adlanır?

A) İşlənmə sistemi və texnologiyası

B) İşlənmənin baza variantı

C) İşlənmə layihəsi

D) Kompleks-tədqiqat layihəsi

E) İşlənmənin təhlili

Testin çətinlik dərəcəsi: orta

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

17. İşlənilmə prosesində laydan götürülmüş maye həcmini kənar sular tam kompensasiya etmir və lay təzyiqi tədricən aşağı düşür. Nəticədə, lay suxurlarının və suyun genişlənilməsi baş verir, yaranmış enerji isə neftin quyu dibinə süzülməsinə müsbət təsir göstərir. Bu hansı rejim üçün səciyyəvidir?

A) Subasqı rejimi üçün

B) Qarışıq rejim üçün

C) Aktiv rejim üçün

D) Qravitasiya rejimi üçün

E) Elastik subasqı rejimi üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

18. Strukturun tağ hissəsində toplanmış böyük təzyiqli qaz yığımlarının (qaz papağının) enerjisinin təzahürü nəticəsində əmələ gələn təbii rejim hansıdır?

A) Neftdə həll olmuş qaz rejimi

B) Qravitasiya rejimi

C) Passiv rejim

D) Qaz papağı rejimi

E) Sərbəst qaz rejimi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

19. Hansı rejimi üçün suxurların yüksək məsaməliyi, layların daha dik yatması və neftin özlülüyünün az olması daha əlverişli hal sayılır?

A) Neftdə həll olmuş qaz rejimi üçün

B) Subasqı rejimi üçün

C) Qaz basqı rejimi üçün

D) Qarışıq rejim üçün

E) Tükənmə rejimi üçün

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

20. Hansı rejimdə yataqdan qaz tamamilə tükəndikdən sonra qravitasiya rejimi meydana çıxır?

A) Qarışıq rejimdə

B) Qaz basqı rejimində

C) Mürəkkəb rejimdə

D) Neftdə həll olmuş qaz rejimində

E) Subasqı rejimində

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

21. Yataqlrın işlənmə prosesində lay təzyiqinin düşmə tempinin azalması və onun sabitliyini saxlamaq məqsədilə hansı üsullardan istifadə edirlər?

A) İstilik üsullarından

B) Dolayı üsullardan

C) Quyudibi zonaya təsir üsullarından

D) Üçüncü dərəcəli təsir üsullarından

E) Suvurma üsullarından

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., V.Y.Kərimov və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991., A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

22. Suvurmanın hansı modifikasiyaları tətbiq olunur?

A) Daxili, paralel

B) Konturarxası, konturyanı, konturdaxili

C) Konturətrafı, perpendikulyar

D) Sahəvi, şaquli

E) Tağlı, seçmə, dioqonal

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

23. Layda geoloji müxtəliflik dərəcəsi aşağı, lay suxurlarının keçiriciliyi çox, neftlərin özlülüyü isə az, yatağın eni təxminən 5 km-ə qədər olan şəraitdə hansı suvurma üsulu tətbiq olunur?

A) Konusvarı suvurma

B) Paralel suvurma

C) Diaqonal suvurma

D) Konturarxası suvurma

E) Konturyanı suvurma

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

24. Su-neft konturu zonasında layların keçiriciliyinin nisbətən az olması ilə əlaqədar tətbiq olunan suvurma növü hansıdır?

A) Horizontal suvurma

B) Sədli suvurma

C) Konturyanı suvurma

D) Konturdaxili suvurma

E) Sahəvi suvurma

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

25. Yatağın neftlilik sahəsi böyük, layın geoloji müxtəlifliyi yüksək, suxurların keçiriciliyi nisbətən az, neftlərin özlülüyü isə yüksək olması şəraiti hansı suvurma üsulunun tətbiqi üçün effektlidir?

A) Dairəvi suvurma üçün

B) Konturdaxili suvurma üçün

C) Konturətrafı suvurma üçün

D) Konturarxası  suvurma üçün

E) Zolaqlı suvurma üçün

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

26. Yataqların kəsilişi üzrə laylaşmada gedən dəyişmələr və onların qalınlıqlarının (o cümlədən effektiv qalınlıq) müxtəlif istiqamətdə paylanması necə ifadə olunur?

A) Mikro qeyribircinslilik

B) Ümumi qeyribircinslilik

C) Makro qeyribircinslilik

D) Lokal qeyribircinslilik

E) Sahəvi qeyribircinsliıik

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.A.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

27. Laylaşmanın müxtəlifliyi fonunda qalınlığı və geoloji quruluşu sabit qalan (və ya az dəyişən)  laylar necə adlanır?

A) Qeyri sabit reper laylar

B) Dalğavari   laylar

C) Ardıcıl laylar

D) Reper laylar

E) Üfüqi  laylar

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.A.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

28. Quyudibi zonanın xlorid turşusu, termoturşu üsulu ilə işlənməsi, hidravlik yarılmanın aparılmasında məqsəd nədən ibarətfdir?

A) Quyudibi zonada təzyiqi bərpa etmək üçün

B) Quyudibi zonanın bərkidilməsi üçün

C) Quyudibi zonanı genişləndirmək üçün

D) Quyu dibi zonada keçiriciliyi artırmaq üçün

E) Quyudibi zonanın yuyulması üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

29. Layların neftverimini artırmq üçün tətbiq olunan səthi aktiv maddələr (SAM), polimer, qələvi, miselyar məhlullar, köpük və onların kombinasiyaları hansı üsullara aiddir?

A) Qaz ilə təsir üsullarına

B) Fiziki-kimyəvi təsir üsullarına

C) Fasilələrlə təsir üsullarına

D) Emulsiya ilə təsir üsullarına

E) Fiziki-hidrodinamiki təsir üsullarına

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

30. Qrup halında olan neft-qaz yataqları hansı məvhumla ifadə olunur?

A) Neftli-qazlı rayonlar

B) Neftli-qazlı vilayət

C) Neftli-qazlı əyalət

D) Neftli-qazlı qurşaq

E) Neftli-qazlı zona

Testin çətinlik dərəcəsi: asan

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

31. Yatağın sahəsi tamamilə quyu şəbəkəsi ilə əhatə olunmuş, həmin quyulardan yatağın geoloji-texnoloji parametrləri haqqında kompleks məlumatlar əldə edilmiş sahələrin etiyatları hansı kateqoriyaya aiddir?

A) $C_1$ katqoriyasına

B) A kateqoriyasına

C) B kateqoriyasına

D) $C_2$ kateqoriyasına

E) $C_3$ kateqoriyasına

Testin çətinlik dərəcəsi: orta

İstinad: М.А.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

32. Qeyd edilənlərdən hansı axtarış-kəşfiyyat işlərində tətbiq edilən quyulara aid deyil?

A) İstinad quyuları

B) Axtraış quyuları

C) Struktur quyular

D) Parametrik quyular

E) Vurucu quyular

Testin çətinlik dərəcəsi: asan

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

33. Ekran tipli qırılmmalaral səciyyələnən yataqlar üçün səciyyəvi xüsusiyyətlər hansı variantda düzgün verilmişdır?

A) Eyni quyu şəbəkəsi ilə istismar olunur, ehtiyatlar birgə hesablanır və birgə işlənilmə sistemi tətbiq olunur

B) Sahələr arasında lay təzyiqləri eynidir, hasilatlar müxtəlifdir, konturarxası suvurma sistemi tətbiq edilir

C) Sahələr arasında suxurların kollektor xüsusiyyətləri, işlənmə tempi eyni olub, işlənmə prosesində istismar obyektləri birləşdirilir

D) Sahələr arasında flüid axımı qeyd edilmir, ehtiyatlar ayrıca hesablanır və müstəqil işlənilmə sistemi tətbiq olunur

E) Sahələr arasında flüid axımı qeyd olunur, ehtiyatlar birgə hesablanır və işlənmə bərabər quyu şəbəkəsi ilə aparılır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

34. Neft və qazı özündə saxlamaq və işlənmə zamanı vermək qabiliyyətinə malik olan dağ süxurları necə adlanır?

A) Şlam

B) Ana süxur

C) Tələ

D) Kollektor

E) Kern

Testin çətinlik dərəcəsi: asan

İstinad: М.А.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

35. Bir - biri ilə əlaqəli məsamələrin həcmi hansı  məsaməlikdir?

A) Effektiv

B) Ümumi

C) Nisbi

D) Tam

E) Açıq

Testin çətinlik dərəcəsi: asan

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

36. Neftli laylara su buxarının yüksək təzyiqlə vurulması hansı təsir üsulunun modifikasiyasıdır?

A) Təkrar təsir üsullarının

B) Əlavə təsir üsullarının

C) İstilik üsullarının

D) Fiziki-kimyəvi təsir üsullarının

E) Suvurma üsulunun

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

37. Neftin və qazın əmələ gəlməsi və kollektor süxurlarda saxlanılması üçün onları üstdən örtən ekran və mühafizə qabiliyyətinə malik olan süxurlar necə adlanır?

A) Əlaqələndirici süxurlar

B) Örtük süxurlar

C) Törədici süxurlar

D) Ana süxurlar

E) Kollektor süxurlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

38. Qərb standartlarına görə normativ-hüquqi baza əsasında iqtisadi şəraiti, istismar üsulları əsaslandırılmış, kifayət qədər sənaye əhəmiyyətli çıxarılabilən ehtiyatlara malik kəşf edilmiş yataqların ehtiyatları hansı ehtiyatlardır?

A) Mümkün olan ehtiyatlar

B) Ehtimal olunan ehtiyatlar

C) Çətinçıxarılabilən ehtiyatlar

D) Təsdiq olunmuş”(sübut olunmuş) ehtiyatlar

E) Aktiv ehtiyatlar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: E.Əhmədov. Neft-qaz yataqlarının karbohidrogen ehtiyatlarınınvə resurslarınınqiymətləndirilməsi. Bakı, 2019

39. Dağ süxurlarının mayeni (neft və su) və qazı özündən keçirmək qabiliyyəti adlanır:

A) Neftlədoyumluluq

B) Məsaməlik

C) Keçiricilik

D) Fasiya

E) Qumluluq

Testin çətinlik dərəcəsi: asan

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

40. Kəşfiyyat quyularının yerləşdirilməsində hansı  sistem mövcuddur?

A) Kvadrat,üçbucaq

B) Dairəvi,perpendikulyar

C) Mərkəzi,  sədli

D) Ücbucaq, həlqəvi,profillər

E) Şəbəkə,sürüşmə,sahəvi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

41. Qeyd edilənlərdən hansı neft və qazlılığın qiymətlədirilməsi meyarıarına aid deyil?

A) Tektonik amil

B) Geotermik amil

C) İqlim amili

D) Litoloji-fasial amil

E) Paleocoqrafi amil

Testin çətinlik dərəcəsi: orta

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

42. Müvafiq texnika və texnologiya ilə və ya iqtisadi göstəricilərə görə cari dövrdə istismar edilməyən yataqların ehtiyatı hansı kateqoriyadır?

A) Balans ehtiyatı

B) Mümkün olan ehtiyatlar

C) Ehtimal olunan ehtiyatlar

D) Perspektiv ehtiyatlar

E) Balansdan kənar ehtiyat

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası, ADNA. Bakı, 2011, M.A.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

43. Neft yataqlarının ehtiyatının öyrənilmə dərəcəsinə görə təsnifatı hansı variantda düzgün verilmişdir?

A) $C_3$, 2P, 3P

B) 1P, $C_1$,$C_2$

C) $C_2$,$C_3$, $D_1$, $D_2$

D) A, B, $C_1$, $C_2$

E) A, B, ,$C_2$, $C_3$

Testin çətinlik dərəcəsi: asan

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

44. Neft-qaz əmələgəlmə prosesi bir neçə mərhələdən ibarətdir. Hansı variant bu mərhələyə aid deyil?

A) Üzvi maddələrin toplanması

B) Karbohidrogenlərin generasiyası

C) Hövzə dibinin qalxmaya məruz qalması

D) Karbohidrogenlərin  miqrasiyası

E) Karbohidrogenlərin akkumulasiyası (toplanması)

Testin çətinlik dərəcəsi: orta

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

45. Karbohidrogenlərin müxtəlif faza halında (qaz, maye, sülb)  iri geostruktur elementlərin hər hansı hissələrində toplanması necə adlanır?

A) Litoloji-fasial zonallıq

B) Geostruktur zonallıq

C) Tektonik zonallıq

D) Şaquli zonallıq

E) IV zonallıq

Testin çətinlik dərəcəsi: orta

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

46. İstismar rejimlərinin dəyişdirilməsində hansı tədqiqatlar mühüm rol oynayır?

A) Geoloji tədqiqatlar

B) Hidrodinamiki tədqiqatlar

C) Texnoloji tədqiqatlar

D) Geofiziki tədqiqatlar

E) Ekoloji tədqiqatlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

47. Qaz yatağının işlənməsi aparıla bilər:

A) Aktiv rejimdə

B) Passiv rejimdə

C) Qaz, su basqısı və qarışıq rejimlərdə

D) Qravitasiya rejimində

E) Elastik subasqı rejimində

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

48. Vahid həcm neftdə həll olmuş qazın miqdarı necə adlanır?

A) Qaz sərfi

B) Qazın sıxlığı

C) Qazın təzyiqi

D) Qaz amili

E) Qazın temperaturu

Testin çətinlik dərəcəsi: asan

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

49. Əvvəlcədən qiymətləndirilmiş ehtiyatlara aid edilən kateqoriya hansıdır?

A) $C_3$

B) $D_1$

C) $C_2$

D) $C_1$

E) $D_2$

Testin çətinlik dərəcəsi: asan

İstinad: https://www.tyuiu.ru/media/files/2015/01_29/lektsii-po-razrabotke-sarancha-a.v..pdf

50. Tağlı, tektonik ekranlaşmış, kontaktətrafı neft-qaz yataqları hansı sinifə aiddir?

A) Struktur yataqlar sinifinə

B) Stratiqrafik yataqlar sinifinə

C) Litoloji yataqlar sinifinə

D) Keçid yataqlar sinifinə

E) Mürəkkəb yataqlar sinfinə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

51. Layın qalxımı üzrə litoloji pazlaşması, kollektorların pis keçirici süxurlarla əvəz olunması, linzavarı,yuvavari,qolvari şəkildə olan yataqlar hansı sinfdə təsnif olunur?

A) Sadə yataqlar sinfində

B) Pazlaşmış yataqlar sinfində

C) Litoloji yataqlar sinifində

D) Struktur yataqlar sinfində

E) Stratiqrafik yataqlar sinfində

Testin çətinlik dərəcəsi: çətin

İstinad: H.M.Hüseynov,A.Q.Abbasov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı.Bakı,2006

52. Ehtiyat artımlarının hesablanmasında məqsəd nədən ibarətdir?

A) Quyuların texnoloji rejiminin dəyişdirilməsindən

B) Laya təsir üsullarının təkmilləşdirilmsəindən

C) Perforasiya intervallarının genişləndirilməsindən

D) Aşağı kateqoriyalı ehtiyatların yuxarı kateqoriyalı ehtiyatlara keçirilməsindən

E) Son neftvermə əmsalının artırılmasından

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.İsgəndərov. Nef-qaz mədən geologiyası və neft-qaz yataqlarının işlənməsi. Bakı, 1968

53. Fərz olunan xüsusi müqavimət (FXM) və quyu potensialı əyrisi (QP) qeyd olunan karotaj hansı variantda düzgün verilmişdir?

A) Qamma karotajında

B) Akustik karotaj

C) Mexaniki karotaj

D) Elektrik karotajında

E) İmpuls karotajı

Testin çətinlik dərəcəsi: asan

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. ADNSU-nun mətbəəsi. Bakı, 2018

54. Karotaj diaqramlarının interpretasiyası hansı məsələləri öyrənir?

A) Layların yatma dərinliyini, neftlərin fiziki-kimyəvi xüsusiyyətlərini, lay təzyiqini

B) Müxtəlif litoloji layların yatma dərinliyini, sərhədlərini, litoloji tərkibini, kollektorluluğu

C) Müxtəlif litoloji layların sərhədlərini, neftlə doymanı, ehtiyatın təqribi miqdarını

D) Layların yatma dərinliyini, layların keçiriciliyini, tektonik qırılmaların mahiyyətini

E) Suxurların sərtlik dərəcəsini, onlarda yaranan qamma şüalanmanın intensivliyini

Testin çətinlik dərəcəsi: asan

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. ADNSU-nun mətbəəsi. Bakı, 2018

55. Nazik layların xüsusi elektrik müqavimətini təyin etmək üçün hansı karotaj üsulundan istifadə olunur?

A) Radioaktiv karotaj üsulundan

B) Qamma karotajı üsulundan

C) Maqnit karotajı üsulundan

D) Qaz karotajı üsulundan

E) Mikrokarotaj üsulundan

Testin çətinlik dərəcəsi: asan

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. Bakı, 2018

56. İnklinometriya üsulunun tətbiqi hansı məqsəd daşıyır?

A) Qoruyucu kəmər arxasında sementin səviyyəsi öyrənilir

B) Suxurların təbii və süni radioaktivliyini öyrənir

C) Quyunun meyl və azimut bucaqları öyrənilir

D) Quyunun həqiqi diametrinin dərinliyə görə dəyişməsini öyrənir

E) Quyuda təbii yaranmış qamma kvantlar sahəsini öyrənir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. Bakı, 2018

57. Quyuda sementləmə işlərinin səmərəliliyinin təyin edilməsi hansı karotaj üsulu vasitəsilə həyata keçirilir?

A) Termometriya karotaj vasitəsilə

B) Akustik karotaj vasitəsilə

C) Maqnit karotajı vasitəsilə

D) Kavernometriya üsulu vasitəsilə

E) İnduksiya karotajı vasitəsilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. Bakı, 2018

58. Neytron qamma karotajında qeyri-kollektor laylar qarşısında əyri hansı qiymətlə səciyyələnir?

A) Maksimal qiymətlə

B) Orta qiymətlə

C) Minimum qiymətlə

D) Orta və minimum qiymətlə

E) Maksimum və orta qiymətlə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. Bakı, 2018

59. Quyu potensialı əyrisinin kollektor laylar qarşısında aldığı qiymət hansı variantda düzgün verilmişdir?

A) Minimum amplituda ilə səciyyələnir

B) Maksimum amplituda ilə səciyyələnir

C) Orta amplituda ilə səciyyələnir

D) Minimum və orta amplituda ilə səciyyələnir

E) Maksimum və orta amplituda ilə səciyyələnir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. Bakı, 2018

60. Radioaktiv karotajın aparılmasında məqsəd nədən ibarətdir?

A) Suxurların süni elektrik xüsusiyyətlərinin öyrənilməsindən

B) Məhsuldar layların həqiqi xüsusi müqavimətinin müəyyən edilməsindən

C) Qoruyucu kəmər arxasında sementin səviyyəsinin öyrənilməsindən

D) Kəsiliş boyu təbii qamma kvantların paylanmasının öyrənilməsindən

E) Suxurların təbii və süni radioaktivliyinin öyrənilməsindən

Testin çətinlik dərəcəsi: asan

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Geofiziki tədqiqat üsulları və interpretasiyası. Bakı, 2018

61. İstismar quyu fonduna aiddir:

A) Köməkçi quyular

B) Vurucu quyular

C) Qiymətləndirici quyular

D) İşlək və fəaliyyətsiz quyular

E) Nəzarət quyuları

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Ə.Mircəfərov. Quyuların istismarının geoloji təminatı. Bakı, 2012

62. Qranulometrik tərkib, mikrofauna təhlili, karbonatlılıq tədqiqatları hansı nümunələrin öyrənilməsi üçün aparılır?

A) Su nümunələrinin öyrənilməsi üçün

B) Qazma məhlullarının tərkibinin öyrənilməsi üçün

C) Suxur nümunələrinin öyrənilməsi üçün

D) Qaz nümunələrinin öyrənilməsi üçün

E) Yalnız gil məhlulunun öyrənilməsi üçün

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.A.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

63. Qırılma sistemində mərkəzi blok qalxmış, kənar bloklar enmiş olarsa belə sistem necə  adlanır?

A) Qraben

B) Asılı qanad

C) Horst

D) Yatıq qanad

E) Üstəgəlmə

Testin çətinlik dərəcəsi: asan

İstinad: А.К.Корсаков. Структурная геология. Москва,2009, Б.Д.Васильев, А.Ю.Фальк. Структурная геология . Томск, 2010

64. Suxur dənələrinin ölçü qiymətləri hansı analizin əsasını təşkil edir?

A) Lüminessent analizin

B) Mineraloji analizin

C) Qranulometrik analizin

D) Mexaniki analizin

E) Mikrofauna analizin

Testin çətinlik dərəcəsi: asan

İstinad: М.А.Жданов. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. Москва, 1981

65. Lay sularının kimyəvi tərkibinə görə Na+ + K+ və Cl-, SO4-2 ionlarının bir-birinə olan nisbəti üzrə siniflərə bölünməsi (5 sinif) hansı təsnifatın əsasını təşkil edir?

A) Tolstixin təsnifatının

B) Sulin təsnifatının

C) Alyokin təsnifatının

D) Şukarev təsnifatının

E) Palmer təsnifatının

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

66. Lay sularının mənşəyini aydınlaşdırmaq üçün üç genetik (mənşə) əmsalın təklif edilməsi təsnifatı hansıdır?

A) Palmer təsnifatı

B) Alyokin təsnifatı

C) Aleksandrov təsnifatı

D) Sulin təsnifatı

E) Kurlov təsnifatı

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

67. Neft və qaz yataqlarının geoloji quruluşunun dəqiqləşdirilməsinin təyinatı hansı variantda düzgün verilmişdir?

A) İstismar və vurucu quyuların sahə üzrə yerləşdirilməsinin əsaslandırılması

B) İşlənməyə texnoloji parametrlərinin təsirinin təhlili

C) Yeni qazılmış quyu məlumatları da nəzərə alınmaqla struktur xəritə və geoloji profillərin tərtibi və əvvəlki variantlarla müqayisəsi

D) Ehtiyatların sahə üzrə paylanma areallarını müəyyən edilməsi

E) Su-neft, qaz, maye kontaktlarının yerinin müəyyənləşdirilməsi, məhsuldarlığın qiymətləndirilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

68. Quyularda layların izolə edilməsində hansı üsuldan istifadə edilir?

A) Quyularda pakerlər qoyulur

B) Quyu əsaslı təmirə hazırlanır

C) Quyularda perforasiya işləri aparılır

D) Quyularda torpedləmə işləri aparılır

E) Quyularda süzgəclər qoyulur

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Ə.Mircəfərov. Quyuların istismarının geoloji təminatı. Bakı, 2012

69. Ehtiyatı çətin çıxarıla bilən yataqlar əsasən hansı parametrlərin qiymətlərinə görə qruplaşdırılır?

A) Keçiricilik və özlülük göstəricilərinə görə

B) Lay təzyiqi və temperatura görə

C) İşlənmə tempi, quyu şəbəkəsinin sıxlığına görə

D) Yatma dərinliyinə, effektiv qalınlığına görə

E) Məsaməlik və qumluluğa görə

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.Ə.Bağırov. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

70. Hansı variantda verilənlər  texnoloji göstəricilər sırasına aiddir?

A) Çöküntülərin bölünməsi,effektiv qalınlıq

B) Quyu şəbəkəsinin sıxlığı, işlənmə tempi,hasilatın sulaşması, neftvermə əmsalları

C) Məsaməlik,keçiricilik,qumluluq

D) Neftin özlülüyü,hasilatın sulaşması,sement maddəsinin miqdarı

E) Neftin sıxlığı, işlənmə tempi

Testin çətinlik dərəcəsi: orta

İstinad: И.Р.Юшков,Г.П.Хижняк,П.Ю.Илюшин.Разработка и эксплуатация нефтяных и газовых месторождений. Пермь,2013.. А.К.Ягафаров, И.И.Клещенко. ,Г.П.Зозуля и др. Разработка нефтяных и газовых месторождений. Тюмень, 2010.

71. Layla quyu arasında əlaqənin yaradılması üçün hansı üsuldan istifadə olunur?

A) Perforasiya üsulundan

B) Pakerləmə üsulundan

C) Topedləmə  üsulundan

D) Qum şırnağı ilə təsir üsulundan

E) Turşu ilə təsir üsulundan

Testin çətinlik dərəcəsi: orta

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Quyularda partlayış işləri. Dərs vəsaiti. ADNA. Bakı, 2015

72. Radioaktiv reper üsulu nə üçün tətbiq olunur?

A) İzolyasiya işlərinin dəqiq aparılması üçün

B) Perforasiya intervalının dəqiq təyin edilməsi üçün

C) Karotaj işlərinin dəqiq aparılması üçün

D) Suxur nümunələrinin dəqiq götürülməsi üçün

E) Hasilatın dinamikasına nəzarət etmək üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Quyularda partlayış işləri. Dərs vəsaiti. ADNA. Bakı, 2015

73. Layın bütün qalınlığının açıldığı və lay qarşısında heç bir süzgəc olmadığı quyu necə adlanır?

A) Natamam quyu

B) İnjeksiya  quyusu

C) Tamamlanmış  quyu

D) Qiymətləndirici quyu

E) Şlam quyusu

Testin çətinlik dərəcəsi: çətin

İstinad: T.Ş.Salavatov, Ş.Z.İsmayılov. Dəniz qaz və qazkondensat yataqlarının işlənməsi nəzəriyyəsi və istismar texnologiyası. Bakı, 2018

74. Qeyri-bircins mühitdə suvurma prosesi necə müşahidə olunur?

A) Bircins mühitdlə eynidir

B) Vurulan suyun mexaniki tərkibindən asılıdır

C) Suyun qeyri-bərabər hərəkəti, su dillərinin yaranması baş verir

D) Su-neft konturu kəskin dəyişir

E) Quyuların uduculuq qabiliyyəti yoxlanılılmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: И.Р.Юшков,Г.П.Хижняк,П.Ю.Илюшин.Разработка и эксплуатация нефтяных и газовых месторождений. Пермь,2013, А.К.Ягафаров, И.И.Клещенко. ,Г.П.Зозуля и др. Разработка нефтяных и газовых месторождений. Тюмень, 2010.

75. Perforasiya zamanı neft, qaz təzahürlərinin qarşısını almaq məqsədilə hansı tədbir görülür?

A) Perforasiya işi dayandırılır

B) Quyu ağzında siyirtmə qoyulur

C) Quyu avadanlıqları dəyişdirilir

D) Freyzerlərdən istifadə olunur

E) Kipləşdirici qarmaqlardan istifadə olunur

Testin çətinlik dərəcəsi: orta

İstinad: V.M.Seyidov, K.Ə.Kərimova. Quyularda partlayış işləri. Dərs vəsaiti. ADNA. Bakı, 2015

76. Mədənlərdə işçi agent kimi istifadə olunan heksametafosfat natrium maddəsi hansı məqsədlə tətbiq olunur?

A) Duzun çökməsinin qarşısını almaq üçün

B) Neftin özlülyünü azaltmaq üçün

C) Suyun özlülyünü artırmaq üçün

D) Qeyri-bircinsliliyi azaltmaq üçün

E) Keçiriciliyi stabilləşdirmək  üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İskəndərov, M.Ə.Abdullayev, R.Q.Ağayev, S.M.Əliyev, Ə.C.Əmirov, Ə.F.Qasımov. Neft və qaz yataqlarının işlənməsi və istismarı. Bakı, 2011

77. Quyuların interferensiyası dedikdə nə başa düşülür?

